# HALAL ZƏHMƏTİN İŞIĞINDA

**Blaband kəndi uca dağlara söykənib. Üzünü günəşə, işığa tutub. Min bir rəngə çalan mənzərələri, yaşıllıqları göz oxşayır.**

Halal, zəhmətkeş, mərd insanları, alimləri, adlı-sanlı ziyalıları kəndin və doğma Lerikin adını uzaq diyarlarda tanıdır. Görkəmli dilçi alim, filologiya elmləri doktoru, professor Əvəz Sadıqov uzun illər Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunda şöbə müdiri işləyib. Kəndin daha bir yetirməsi Əminağa Sadıqov hazırda Milli Elmlər Akademiyasının elmi katibi kimi məsul vəzifədə çalışır. Milli Elmlər Akademiyasının müxbir üzvüdür. Respublikamızda və onun hüdudlarından kənarda riyaziyyatçı alim kimi böyük nüfuza, hörmətə malikdir. Zahirəli Sadıqov da riyaziyyatçıdır, Azərbaycan Dövlət Pedaqoji Universitetində kafedra müdiri işləyir.

Sadıqovlar nəslinin layiqli nümayəndələrindən biri də Fətta Sadıqovdur. Atası Qafar gənclik illərində Bakıda neft mədənlərində işləyib. Sonra doğma yurda qayıdıb. Ömür-gün yoldaşı Münəvvər xanımla 7 övlad böyüdüb ərsəyə çatdırıblar. Ailənin sonbeşiyi olan Fətta orta məktəbdə bilikli, nümunəvi şagird kimi yaşıdlarından fərqlənirdi. Qardaşları riyaziyyata, humanitar elmlərə meyil salsalar da, o, həkim olacağını düşünürdü. Anası oynaq ağrılarından çox əziyyət çəkdiyindən Fətta bu qənaətə gəlmişdi.

Orta məktəbdə oxuduğu illərdə Azərbaycan Dövlət Tibb Universitetinə qəbul olunmaq o qədər də asan deyildi. Qəbul imtahanlarında böyük müsabiqə olurdu. Məktəbin məzunlarından bir neçəsi illərlə müsabiqədən keçə bilmirdi. Orta məktəb müəllimləri ona deyirdilər ki, başqa ixtisas seçsin. Fətta isə biliyinə, qüvvəsinə inanır, deyirdi ki, həyatda fəth olunmayan zirvə yoxdur.

1989-cu ildə imtahanlardan yüksək nəticə qazanaraq Azərbaycan Dövlət Tibb Universitetinin birinci müalicə-profilaktika fakültəsinə qəbul olundu. Gecə-gündüz oxuyur, ixtisasını böyük həvəslə, dərindən öyrənirdi. Universitetdə əlaçı tələbə kimi tanınır, müəllimlərin etimadını qazanırdı. Əmisi, professor Əvəz Sadıqov ona deyirdi: "Düz edirsən, arzularının arxasınca get, səndən yaxşı həkim olacaq."

Fətta 1995-ci ildə universiteti bitirdi. O vaxt cərrahiyyə ixtisasına ancaq "əla" qiymətlərlə oxuyanları seçirdilər. Fətta zəhmətinin bəhrəsini gördü, cərrahiyyə üzrə təyinat aldı. Bakı şəhər onkoloji dispanserdə iki il cərrah işlədi. Dünya şöhrətli onkoloq, akademik Əhliman Əmiraslanovun rəhbərliyi altında cərrahiyyə üzrə ixtisaslaşdı. Burada cərrahiyyənin sirrlərini öyrəndi, zəngin təcrübə qazandı.

1999-cu ildə M.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzində endokrin cərrahlığı üzrə aspiranturaya qəbul olundu. O dövrün qaydalarına görə üç il ərzində namizədlik dissertasiyasını hazırlamalı və müdafiəyə çıxarmalı idin. Əks halda mərkəzdə elmi işçi kimi qalmaq mümkün deyildir.

Fətta burada Azərbaycan cərrahiyyəsinin korifeylərindən olan akademik Böyükkişi Ağayevin yüksək qayğısını gördü. Bu böyük alimin, nüfuzlu şəxsiyyətin, xeyirxah insanın rəhbərliyi ilə "Böyrəküstü vəzi mənşəli arterial hipertoniyaların kompleks diaqnostikasının və cərrahi müalicəsinin uzaq nəticələrinin yaxşılaşdırılması" mövzusunda namizədlik dissertasiyasını vaxtında, uğurla müdafiə etdi.

Onun elmi işi tibbdə çox aktual məsələlərdən hesab olunur. Fətta Sadıqov mərkəzin endokrin cərrahlığı şöbəsində işləməklə mövzunu praktik olaraq dərindən öyrənir, tədqiq edirdi. O, böyrəküstü vəzi mənşəli hipertoniyalar zamanı böyrəklərdə gedən morfoloji dəyişiklikləri və bu xəstəliyin cərrahi müalicəsinin uzaq nəticələrini öyrənib tətbiq etmişdir. Aldığı sanballı elmi nəticələr namizədlik işinin səviyyəsinin və əhəmiyyətinin yüksək olduğunu əyani təsdiq edir.

İstedadlı, bacarıqlı alim 2010-cu ildə mərkəzin endokrin cərrahlığı şöbəsinin müdiri vəzifəsinə irəli çəkilir. O, elmi işlə yanaşı həm də həkimlik fəaliyyəti ilə məşğul olur. Hər gün çoxlu xəstə qəbul edir, cərrahi əməliyyatlar aparır, xəstələrin müalicəsinin səmərəli olması üçün əlindən gələni əsirgəmir. Onlara peşəkar həkim, səmimi insan kimi yanaşır, heç bir xəstəni diqqətdən kənarda qoymur. Əhalinin aztəminatlı təbəqəsindən olan xəstələrə xüsusi qayğı göstərir, xeyirxahlığı ilə ürəklərdə, yaddaşlarda iz qoyur. Dəfələrlə "Şərəfli həkim" media mükafatına, "İlin həkimi" fəxri adına layiq görülüb. O, "Sağaltdığım minlərlə xəstənin səmimi ürək sözləri, minnətdarlığı mənim ən böyük mükafatımdır", - deyir.

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrası tibb işçilərinin də qarşısında mühüm vəzifələr qoyur. Regionlarda tibbi xidmətin yaxşılaşdırılması və aparılan cərrahiyyə əməliyyatlarının keyfiyyətinin yüksəldilməsinə çalışdığı Elmi Cərrahiyyə Mərkəzinin kollektivi də öz töhfələrini verir. Fətta Sadıqov həmkarları ilə teztez respublikamızın rayonlarında olur, xəstələri yerindəcə müayinə edərək uğurlu cərrahi əməliyyatlar aparır. Sabirabad, İmişli, Zərdab, Göyçay, Beyləqan, Masallı və digər regionlarda tibbi konfranslar keçirir, səhiyyənin yeni nailiyyətləri, endokrin cərrahlığın müasir aspektləri mövzusunda çıxışları böyük maraqla qarşılanır.

Bacarıqlı tibb təşkilatçısı, nüfuzlu alim Fətta Sadıqov gənc cərrahların hazırlanmasında işgüzar, təcrübəli müəllim və ustad kimi köməyini əsirgəmir, rezidentlərə ustad dərsləri keçir, onların cərrahi əməliyyatlarda iştirakını təmin edir.

"Azərbaycan tibb jurnalı", "Sağlamlıq" və "Cərrahiyyə" jurnallarında endokrin xəstəliklərinin diaqnostika və müalicəsinin müasir aspektləri mövzusunda tezis və məqalələrlə çıxış edir. Fətta Sadıqov Avropa Tireodoloqlar Assosiasiyasının, Rusiya Endokrin Cərrahlar Cəmiyyətinin, Azərbaycan-Türkiyə-Almaniya Cərrahlar Cəmiyyətinin konfranslarında, həmçinin, İtaliya və Türkiyədə, Tbilisi, Smolensk, Yaroslavl, İrkutsk, Samara, Sankt-Peterburq şəhərlərində keçirilən konfranslarda ölkəmizin tibb elmini ləyaqətlə təmsil etmişdir.

O, bu gün də yorulmadan öz üzərində çalışır, elmi tədqiqatlarını uğurla davam etdirir. "Autoimmun tireodit xəstəliyinin diaqnostikasının və müalicə taktikasının müasir aspektləri" mövzusunda doktorluq işini yekunlaşdırmaq üzrədir. Həkimlik fəaliyyətində endokrin cərrahlığın son nailiyyətlərinin tətbiqinə daha çox üstünlük verir.

M.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzinin direktoru, tibb elmləri doktoru, professor Rauf Ağayev Fətta Sadıqovun həkim kimi gözəl bacarığa, alim kimi yüksək səviyyəyə, mədəniyyətə malik olduğunu vurğulayaraq deyir: "Fəttada həkim peşəkarlığı ilə alim müdrikliyi qovuşub. Sənətinin vurğunudur. İşini gözəl bilir. Onun elm sahəsində daha parlaq nailiyyətlər əldə edəcəyinə inanıram."

Mərkəzin elmi işlər üzrə direktor müavini, tibb elmləri doktoru, professor Hidayət İsayev, mərkəzin baş həkimi, tibb elmləri doktoru Yusif Əliyev, tibb elmləri doktoru, professor Əliniyaz Məmmədov, tibb elmləri doktoru Zərraf Şirinov Fətta Sadıqovun istər elm, istərsə də səhiyyə sahəsində kifayət qədər tanındığını, tibbi ictimaiyyət arasında böyük nüfuza malik olduğunu, haqqında həmişə xoş sözlər deyildiyini bildirirlər.



Tələbə dostu, Mərkəzi Neftçilər Xəstəxanasının şöbə müdiri Yaşar Həsənov Fətta Sadıqovun sadə, əməkçi bir ailədə böyüdüyünü, ömrü boyu zəhmətə qatlaşdığını, tələbəlik dövründə elmə sonsuz maraq göstərdiyini, qazandığı uğurların arxasında halal zəhmət və istedadın durduğunu deyir. Tələbə yoldaşının yeni uğurlara imza atacağını əminliklə söyləyir.

Fətta həkimin övladları Vəfa və Səma ata yolunun davamçıları olacaqlar. Vəfa Macarıstanda, Səma Türkiyədə ali tibb təhsili alır. Sadıq isə Bakı şəhərindəki fizika-riyaziyyat və informatika təmayüllü liseydə oxuyur.

Gözəl alim, peşəkar həkim Fətta Sadıqov vətənpərvər, gərəkli, xeyirxah insan olmağı həyatının mənası hesab edir. Azərbaycan səhiyyəsinin uğurları ilə qürur duyur, ölkəmizin səhiyyə sisteminin aparıcı dövlətlərin səviyyəsinə çatacağına bütün varlığı ilə inanır. Bu sahədə səylərini əsirgəmir, səhiyyəmizin inkişafına dəyərli töhfələr verir.

***Əlisəfa HƏSƏNOV,***
**"Respublika".**

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün.*